# UNİVERSİTETDƏ QIŞ İMTAHAN SESSİYASI MÜVƏFFƏQİYYƏTLƏ DAVAM EDİR.

"Təfəkkür" Universitetində qış imtahan sessiyası müvəffəqiyyətlə davam edir. Bu günə kimi bütün qruplarda nəzərdə tutulan imtahanlar vaxtında keçirilmişdir. Tələbələrin əksəriyyəti imtahanlardan müvafiq qiymətlər almışlar. Tələbələrin imtahanlara sərbəst hazırlığını təmin etmək məqsədi ilə universitetdə fəaliyyət göstərən elektron kitabxananın iş vaxtı uzadılmışdır. Əvvəlki illərdə olduğu kimi bu dəfə də imtahanlar yazılı formada keçirilir.

Qış imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsi, tələbələrin biliyinin düzgün qiymətləndirilməsi, imtahanlarda şəffaflığın, obyektivliyin təmin edilməsi, sessiya müddətində yarana biləcək problemlərin dərhal aradan qaldırılması üçün rektorun əmri ilə Operativ Qərargah yaradılmışdır.

Bu günə kimi keçirilən bütün imtahanların nəticələri əvvəlcədən nəzərdə tutulan vaxtda elan olunmuşdur. Qış imtahanları əyani və qiyabi şöbələrdə fevralın 2-nə kimi davam edəcəkdir.



